

# AZƏRBAYCAN - PAKİSTAN STRATEJİ TƏRƏFDAŞLIĞI

**Xaqan Balayev**

*AMEA Hüquq və İnsan Haqları İnstitutunun aparıcı elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, Xəzər Universitetinin müəllimi*

Keçən əsrin 90-cı illərində Sovet İttifaqının tənəzzülü və tarix səhnəsindən silinməsi nəticəsində Avrasiyanın geosiyasi konfiqurasiyasında yeni müstəqil dövlətlər meydana gəlmiş, dövrün reallıqlarına, həmçinin öz dövlət maraqlarına uyğun olaraq bu geosiyasi aktorlar beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirmək, dinamik inkişaflarını təmin etmək üçün qlobal dünya siyasətində fəal rol oynamağa çalışmışlar.

Siyasi arenaya uğurla qədəm qoymuş belə aktorlardan biri də Azərbaycan Respublikasıdır. 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan həm qərbdə, həm də şərqdə beynəlxalq hüququn bütün subyektləri ilə bərabərhüquqlu əməkdaşlıqda maraqlı olmuş (digər tərəfdən qeyd etməliyik ki, suverenliyimizin ilk illərində bəzi qonşu dövlətlərlə siyasi yanaşma tərzində müəyyən səhvlərə yol verilmişdir), böyük güc mərkəzləri ilə inteqrasiya proseslərinə xüsusi diqqət yetirmişdir. Eyni zamanda, Azərbaycan Respublikasının beynəlxalq əlaqələrində şərq ölkələri ilə tərəfdaşlıq məsələləri daim mühüm əhəmiyyət kəsb etmiş, xarici siyasət kursunun prioritet istiqamətlərindən sayılmışdır. Təsadüfi deyil ki, ölkəmizin üzv olduğu ilk beynəlxalq təsisat da Asiya ölkələrinin təşkilatı olan İslam Konfransı Təşkilatı (İKT - 2011-ci ilin iyulundan İslam Əməkdaşlıq Təşkilatı -İƏT) olmuşdur.

Azərbaycan-Asiya yaxınlaşmasında ideoloji amil də önəmli təsirə malikdir. Qərbin xristian ölkələrindən (erməni lobbisinin təbliğat imkanlarının çoxşaxəli olduğu ölkələr) fərqli olaraq, burada islam dininə mənsub olan ölkələr üstünlük təşkil edirlər. Bu baxımdan Azərbaycan şərqin aparıcı dövlətlərindən olan və dünya siyasətində böyük nüfuza malik Pakistan ilə əlaqələrinə xüsusi önəm vermiş, geosiyasi və geoiqtisadi sahələrdə onunla əməkdaşlığı dövlət mənafeyi üçün zəruri hesab etmişdir.

Pakistan Respublikası Azərbaycanın müstəqilliyini tanıyan (1991) ilk ölkələrdən biri olmuşdur. Ölkələrimiz arasında diplomatik münasibətlər 1992-ci ildə qurulmuşdur. Pakistan Cənubi Asiyanın ən nüfuzlu dövlətlərindən olmaqla yanaşı, həmçinin nüvə silahına malik yeganə müsəlman dövlətidir. Beynəlxalq arenada Azərbaycan-Pakistan münasibətləri strateji müttəfiqlik səviyyəsindədir.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində Pakistan daim Azərbaycanı müdafiə etmiş, ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən fərqli olaraq, birmənalı şəkildə ölkəmizin mənafeyinə uyğun siyasət yeritmişdir. Eyni zamanda, Azərbaycan da BMT qətnaməsinə əsaslanaraq, Kəşmir probleminin həllində (1947-ci ildə Hindistan ordusu Pakistana məxsus Kəşmir əyalətinin bir hissəsini işğal etmişdir) Pakistanı dəstəkləmişdir.

Mütəmadi qaydada hər iki ölkə arasında yüksək səviyyəli siyasi əlaqələr həyata keçirilir. Belə siyasi münasibətlərin başlanğıcı 1995-ci ilin oktyabrında Pakistan İslam Respublikasının prezidenti Sərdar Faruq Əhməd Xan Leqarinin Azərbaycana rəsmi səfəri ilə qoyulmuşdur. Bunun ardınca prezident Heydər Əliyevin 1996-cı ilin aprel ayında Pakistana səfəri zamanı iqtisadi, siyasi, mədəni sahələrdə əməkdaşlığa dair mühüm müqavilələrin imzalanması iki ölkə arasındakı əlaqələri daha da möhkəmləndirmişdir.

2000-ci illərin ortalarından başlayaraq ölkə başçıları səviyyəsində növbəti görüşlər reallaşmışdır. Belə ki, 2004-cü ilin iyulunda Pakistan prezidenti Pərviz Müşərrəf Azərbaycana rəsmi səfər etmişdir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevlə görüş zamanı Pərviz Müşərrəf Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini müdafiə etdiyini qəti şəkildə bildirmişdi. Həmçinin ölkə rəhbərləri qarşılıqlı münasibətlərin inkişaf istiqamətləri barədə danışıqlar aparmış, dövlət əhəmiyyətli bir sıra sənədləri - narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında, beynəlxalq terrorçuluq, turizm, gömrük işi sahəsində hökumətlərarası sazişləri imzalamışdılar. Yekun olaraq Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında Birgə Bəyannamə qəbul edilmişdi. 2005-ci ilin aprelində isə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Pakistanda rəsmi səfərdə olmuşdur. Prezidentlər - İlham Əliyevlə Pərviz Müşərrəfin görüşündə sosial-siyasi həyatın müxtəlif sa-

hələri üzrə (informasiya, maliyyə, nəqliyyat və s.) 6 əməkdaşlıq sazişi imzalanmışdı.

Azərbaycan və Pakistan Respublikaları ölkələrarası münasibətlərdən əlavə, beynəlxalq təşkilatlar formatında da əlaqələr saxlamışlar. Bu kontekstdə dövlətlərimizin İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində əlaqələrini xüsusi qeyd edə bilərik. Məhz bu aspektdə 2000-ci ilin iyununda Tehranda və 2002-ci ildə İstanbulda keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının sammitlərində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevlə Pakistan prezidenti Pərviz Müşərrəfin görüşləri baş tutmuşdur.

İqtisadi Əməkdaşlıq Təşkilatının növbəti belə sammitlərindən biri (12-ci Zirvə Toplantısı) 2012-ci ilin oktyabrında Bakıda keçirilmişdir. Bununla əlaqədar Pakistan prezidenti Asif Əli Zərdari Azərbaycana işgüzar səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan və Pakistan prezidentləri arasında qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdi. Dövlət rəhbərləri səviyyəsində görüşlərdən əlavə, Azərbaycan-Pakistan münasibətlərində parlamentlərarası əlaqələr də mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, 2008-ci ilin iyununda Pakistan Senatının sədri Muhammadmian Sumro ölkəmizdə səfərdə olmuş, Azərbaycan Parlamentinin 90 illiyi münasibətilə keçirilmiş tədbirdə iştirak etmişdi. 2013-cü ilin fevralında isə Milli Məclisin sədri Oqtay Əsədov İqtisadi Əməkdaşlıq Təşkilatının Parlamentlərarası Assambleyasının 1-ci iclasında iştirak etmək üçün Pakistana işgüzar səfər etmişdir.

Azərbaycanın Pakistanla əməkdaşlığında hərbi-siyasi faktor da mühüm rol oynamışdır. Bu cəhətdən Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2002-ci ildə imzalanmış Müdafiə və Hərbi sahədə əməkdaşlıq haqqında sazişdə hər iki ölkənin hərbi-siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri əks olunmuşdu. Bu müqavilə ilə dövlətlərimiz arasında hərbi əlaqələr daha da genişlənmiş, silahlı qüvvələrimiz üçün Pakistan istehsalı olan təyyarələr və digər silah növləri əldə edilmişdi. 2015-ci ilin martında Pakistan Respublikasının Birləşmiş Qərargahının Xarici Hərbi Əməkdaşlıq Baş İdarəsinin direktoru general-mayor İftixar Vayn Azərbaycanda səfərdə olmuş, ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin gücləndirilməsi istiqamətində danışıqlar aparmışdır. Bu səfər prosesində Azərbaycan və Pakistan ikitərəfli hərbi əməkdaşlıq protokolu imzalanmışdı. Ermənistanla müharibə vəziyyətində olan Azərbaycan üçün bu hərbi əlaqələr zəruri əhəmiyyətə malik idi.

Pakistanla hərbi tərəfdaşlığımız ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsinə önəmli təsir etmiş, həmçinin zabit kadrlarımız qardaş ölkənin ali hərbi məktəblərində təhsil alaraq daha da təkmilləşmək imkanı qazanmışdılar. Geosiyasi müstəvidə isə Azərbaycan özünə nüfuzlu müttəfiq əldə etmiş, bu isə beynəlxalq aləmdə dövlətimizin mövqelərinin daha da güclənməsinə şərait yaratmışdı.

2016-cı ildə Ermənistanla aprel döyüşləri zamanı isə məsələyə münasibət bildirən Pakistan prezidentinin katibi Əhməd Fərrux demişdi ki "Pakistan həmişə Azərbaycanın yanındadır" və "Azərbaycana qardaş və dost ölkədir". Beynəlxalq səviyyəli bir sıra tədbirlərdə Pakistan daim Azərbaycanı Dağlıq Qarabağ məsələsində müdafiə etmiş, ölkəmizə qarşı erməni təcavüzünü qətiyyətlə pisləmişdir. Eyni zamanda, Pakistan dünyada yeganə dövlətlərdən biridir ki Ermənistanla diplomatik əlaqələr qurmamış, onu ümumiyyətlə dövlət kimi tanımamışdır.

Nəticə etibarilə deyə bilərik ki, Azərbaycan-Pakistan strateji tərəfdaşlığı bu gün də uğurla inkişaf etməkdədir.

## İstifadə olunmuş ədəbiyyat

**Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri: 1991-2016:** [məqalələr toplusu] / red.: F. Məmmədov, C. Vəliyev, A. Məmmədov; Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: Poliart MMC, 2017.- 904 s.

**Kərimov C.** Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi. Beynəlxalq iqtisadi təşkilatlar / C. H. Kərimov, A. İ. Orucov, H. A. İsrafilov; elmi red.: M. Məmmədov, F. Rəhimli; Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Dövlət İqtisad Universiteti.- Əlavələrlə II nəşri.- Bakı, 2012.- 388 s.

**Sana İmran:** Azərbaycan Cənubi Qafqazın sürətlə inkişaf edən, təhlükəsiz müsəlman ölkəsidir". Xəzər Universitetinin pakistanlı doktorantı ilə müsahibə. "Xəzər Xəbər" jurnalı, fevral 2017-ci il, № 359

**Государство, общество, международные отношения на мусульманском Востоке:** Афганистан, Иран, Пакистан, Турция, этнический Курдистан, соседние мусульманские районы: сборник / Н. Ю. Ульченко [и др.]; сост. В. И. Сотников; редкол.: О. И. Жигалина, Н. М. Мамедова, С. Н. Каменев; отв. ред.: В. Я. Белокреницкий, Н. Ю. Ульченко; Российская Академия Наук, Федеральное государственное бюджетное учреждение науки, Институт Востоковедения РАН.- М.: ИВ РАН: Крафт+, 2014.- 608 с.

**Abbasova N.** Pakistan keen for broader cooperation with Azerbaijan / N. Abbasova // AzerNews. - 2017.- February 8.- № 10. - P. 2.

**Muhammad Asif.** New Page in Azerbaijan-Pakistan relations / M. A. Noor // AzerNEWS.- 2016.- October 19.- № 79.- P. 3.

**Shirinov R.** Pakistan says Armenia's destroying monuments in occupied Azerbaijani lands unacceptable / R. Shirinov // AzerNews.- 2017.- November 3.- № 84.- P. 4.

**"Huge trade potential exists between Azerbaijan and Pakistan, which incidentally has remained untapped"**, Sana Imran the Pakistani researcher, who is pursuing her 'Doctorate in Economics' from Khazar University, Azerbaijan told in her interview to AzVision.az. 15 December 2017. https://en.azvision.az/news/%2077220/-azerbaijan-can-serve-%20as-transit-and-logistic-hubs-%20to-its-region-and-beyond-.html